**Avropa İtifaqı ilə Əməkdaşlıq**

Avropa İttifaqı Qonşuluq Siyasəti və Şərq Tərəfdaşlığı çərçivəsində Azərbaycanla əməkdaşlıq edir. Azərbaycan ilə Avropa İttifaqı arasında hərtərəfli münasibətlərin hüquqi əsasını 22 aprel 1996-cı ildə Lüksemburq şəhərində imzalanmış və 01 iyul 1999-cu il tarixində qüvvəyə minmiş "Bir tərəfdən Avropa Birliyi və onun üzvü olan dövlətlər, digər tərəfdən Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" (TƏS) təşkil edir. Bu Saziş Azərbaycan və Avropa İttifaqı arasında əməkdaşlığın bütün mümkün, xüsusilə də siyasi və iqtisadi sahələrini əhatə edir. Saziş Azərbaycan ilə Avropa İttifaqı arasında hərbi sahəni əhatə etməyən bütün növ əməkdaşlıq formalarının çərçivələrini təmin edir.Azərbaycanla qurum arasında əlaqələrin hüquqi çərçivələrini müəyyənləşdirən digər sənədlər bunlardır:

14 noyabr 2006-cı il tarixində imzalanmış Avropa İttifaqı-Azərbaycan Fəaliyyət Planı;

07 noyabr 2006-cı il tarixində imzalanmış Aİ və Azərbaycan arasında Enerji üzrə Strateji Əməkdaşlığa dair Anlaşma Memorandumu;

16 iyun 2008-ci il tarixində imzalanmış Azərbaycan Respublikası Hökuməti və Avropa Birlikləri Komissiyası arasında Çərçivə Sazişi;

07 may 2009-cu il tarixində imzalanmış Şərq Tərəfdaşlığı Bəyannaməsi;

13 yanvar 2011-ci il tarixində imzalanmış Cənub Qaz Dəhlizinin təsis edilməsinə dair "Birgə Bəyannamə";

13 yanvar 2011-ci il tarixində imzalanmış Azərbaycan və Aİ arasında Cənub Qaz Dəhlizi üzrə İşçi Qrupunun yaradılmasına dair Niyyət Protokolu;

13 yanvar 2011-ci il tarixində imzalanmış Aİ-nin Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti çərçivəsində Avropa Komissiyası və Azərbaycan Respublikası arasında 2011-2013-cü illər üzrə Milli İndikativ Proqrama (MİP) dair Anlaşma Memorandumu;

13 yanvar 2011-ci il tarixində imzalanmış Şərq Tərəfdaşlığı çərçivəsində Azərbaycan Respublikası və Aİ arasında Hərtərəfli İnstitusional Quruculuq (HİQ) Proqramının Çərçivə Sənədinə dair Anlaşma Memorandumu;

14 iyun 2014-cü il tarixində "Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında Azərbaycanın İttifaq proqramlarındakı iştirakının ümumi prinsipləri haqqında Çərçivə Sazişi üzrə, bir tərəfdən Avropa Birlikləri və onların üzv dövlətləri, digər tərəfdən Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinə əlavə Protokol".